


# Yeni Azərbaycan Partiyası prezident seçkilərinin təbliğat-təşviqat kampaniyasına uğurla start verib

## YAP Ağstafa rayon təşkilatı təbliğat-təşviqat prosesinə yüksək mütəşəkkilliklə start verib





Yeni Azərbaycan Partiyasının (YAP) Ağstafa rayon təşkilatı aprelin 11-də keçiriləcək prezident seçkilərinə uğurla start verib. Seçki kampaniyasının təbliğat-təşviqat mərhələsinin başlanması ilə əlaqədar martın 19-da rayon ərazisində təşviqat materallarının müvafiq ərazilərdə yerləşdirilməsi işinə başlanıb. Gün ərzində bu proses başa çatdırılıb.



YAP Ağstafa rayon təşkilatının sədri Ramiz Tatarov bildirib ki, təşkilatda yaradılan seçki qərargahı seçki kampaniyası ilə əlaqədar bütün zəruri tədbirləri həyata keçirir. Onun sözlərinə görə, rayonda yüksək seçki əhval-ruhiyyəsi var: **"Təbliğat-təşviqat prosesi çərçivəsində seçicilərlə görüşlərin keçirilməsi nəzərdə tutulur. Qeyd edim ki, insanlarda seçki əhval-ruhiyyəsi çox yüksəkdir. Ağstafa əhalisinin prezident seçkilərində seçimi cənab İlham Əliyevdir".**

## YAP Tərtər rayon təşkilatının fəalları təşviqat kampaniyasına uğurla qoşulub





Məlum olduğu kimi, 11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkiləri ilə əlaqədar martın 19-da təbliğat-təşviqat kampaniyasına start verilib. Bütün seçkilərdə olduğu kimi, bu dəfə də Yeni Azərbaycan Partiyası (YAP) prosesin önündə gedir.



Digər şəhər və rayonlarda olduğu kimi, Tərtərdə də bu istiqamətdə xüsusi fəallıq müşahidə edilir. Belə ki, martın 19-da başlanan təbliğat-təşviqat kampaniyası çərçivəsində YAP Tərtər rayon təşkilatı təbliğat-təşviqatla bağlı görüləcək işlərə start verib.

Səhər saatlarından etibarən namizədliyi YAP tərəfindən irəli sürülmüş cənab İlham Əliyevin təşviqat plakatları Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq müəyyənləşdirilmiş ərazilərdəki lövhələrə vurulub. Prosesdə ruh yüksəkliyi ilə iştirak edən partiya fəalları cənab İlham Əliyevin bu seçkilərdə də qələbə qazanacağına əminliklərini ifadə ediblər.

## Yeni Azərbaycan Partiyasının Səbail rayon təşkilatı təşviqat kampaniyasına başlayıb





11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkiləri ilə əlaqədar dünən Yeni Azərbaycan Partiyası (YAP) Mərkəzi Seçki Qərargahının Səbail rayon şöbəsində Azərbaycan Respublikasının Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq təşviqat kampaniyasına start verilib.



YAP Səbail rayon təşkilatının fəallarından təşkil olunmuş komanda prezident seçkiləri ilə bağlı təşviqat materiallarını 29 saylı Səbail və 23 saylı Nəsimi-Səbail seçki dairələri üzrə ümumilikdə 40 seçki məntəqəsinin ərazisində quraşdırılmış təşviqat lövhələrinə vurmağa başlayıblar.

Tərtib olunmuş qrafikə uyğun olaraq rayon seçiciləri ilə görüşlər keçiriləcək.

## Hacıqabulda "İlhamla irəli" şüarı ilə prezident seçkilərinin təbliğat-təşviqat kampaniyasına start verilib





Yeni Azərbaycan Partiyası (YAP) Hacıqabul rayon təşkilatı 2018-ci il aprelin 11-nə təyin edilmiş Azərbaycan Respublikası Prezidenti seçkilərinin növbəti və mühüm mərhələsinə - təbliğat-təşviqat kampaniyasına uğurla start verib.



Belə ki, rayon təşkilatının nəzdində yaradılmış seçki qərargahı seçki kampaniyasının bu mühüm mərhələsinə hazırlıq işlərini tam başa çatdırmaqla martın 19-u səhər saatlarından etibarən, təşviqat xarakterli seçki plakatlarının qanunvericiliyə müvafiq olaraq, yerli icra hakimiyyəti orqanları tərəfindən müəyyən edilmiş ünvanlarda yerləşdirilməsini artıq başa çatdırıb.

YAP Hacıqabul rayon təşkilatının sədri Hafis Bəşirov bildirib ki, şəhər təşkilatının fəalları seçki plakatlarının seçki lövhələrinə yerləşdirilməsini az bir vaxtda və qanunauyğun şəkildə həyata keçiriblər. Hacıqabul rayon sakinləri YAP-ın təbliğat və təşviqat kampaniyasında iştirak edən fəallara dəstək olaraq bu işdə yaxından iştirak ediblər.

Hafis Bəşirovun sözlərinə görə, hacıqabullular 11 aprel prezident seçkilərində Prezident İlham Əliyevi böyük səs çoxluğu ilə dəstəkləyəcəklər.

## Saatlıda "İlhamla irəli" şüarı altında təbliğat-təşviqat kampaniyasına başlanıb





Yeni Azərbaycan Partiyasının (YAP) Saatlı rayon təşkilatının Seçki Qərargahı da 11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkilərində təbliğat-təşviqat kampaniyasına uğurla start verib.



Kampaniya çərçivəsində rayon təşkilatının fəalları təşviqat-təbliğat materiallarını, plakatları Saatlı rayonu ərazisinin əhatə etdiyi müvafiq seçki dairələri üzrə seçki məntəqələrinin ərazilərində nəzərdə tutulmuş seçki lövhələrində yerləşdirməyə başlayıblar. YAP Saatlı rayon təşkilatının sədri Lütvəli Şıxəliyevin verdiyi məlumata görə, YAP Saatlı rayon təşkilatının Seçki Qərargahında prezident seçkiləri ilə bağlı tədbirlər planı hazırlanıb, ziyalılardan və nüfuzlu şəxslərdən ibarət təbliğat qrupu yaradılıb. O deyib ki, partiya üzvləri bu kampaniyanın da yüksək səviyyədə keçirilməsi üçün tam səfərbər edilib. Fəal gənclər və rayonun ictimai həyatında seçilən, nüfuzlu şəxslər, ağsaqqallar təşviqatçı qruplara cəlb olunaraq prosesin daha mükəmməl şəkildə həyata keçirilməsinə töhfə verəcəklər. Bukletlərin, təbliğat-təşviqat materiallarının paylanması ilə yanaşı açıq və qapalı yerlərdə seçicilərlə görüşlər də keçiriləcək.

## Laçınlı seçicilər bu dəfə də yüksək fəallıq göstərəcəklər





Yeni Azərbaycan Partiyası (YAP) Laçın rayon təşkilatı da 11 aprel 2018-ci il tarixində keçiriləcək prezident seçkiləri ilə əlaqədar təbliğat-təşviqat kampaniyasına yüksək fəallıqla başlayıb. Rayon təşkilatından verilən məlumata görə, təbliğat-təşviqat kampaniyasına martın 19-da "İlhamla irəli" devizi altında plakatların təbliğat lövhələrində yerləşdirilməsi ilə start verilib.



Qeyd edək ki, 121 saylı Laçın Seçki Dairəsi üzrə 102 seçki məntəqəsi yerləşir və dairə üzrə 46200 seçici qeydiyyatdadır.

Məlumatda o da bildirilib ki, laçınlı seçicilər həmişə olduğu kimi bu dəfə də fəallıq göstərəcəklər və Yeni Azərbaycan Partiyasının namizədi cənab İlham Əliyevə səs verəcəklər. Çünki Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dövləti son illər çox böyük uğurlar qazanıb, ölkəmizin iqtisadiyyatı yüksək sürətlə inkişaf edir.